# ÖLÜLƏR DİRİ ÇIXACAQ

**Əyyub Qiyas Abasov**

Bu qəbir niyə boş qalıb
Hanı yerin adamları?
Kişilər aradan çıxıb
Ancaq qalıb qadınları.

Bu qədər adam içində
Bir gün bir kişi çıxacaq
Hərənin neçə zibili
Neçə pis işi çıxacaq.

Kimsə yerindən dinəcək:
“Ta bəsdir, hesab vaxtıdır.
Haram yeyən dirilərin
Daha qan qusan vaxtıdır.”

Kimsə günahın yuyanda
Özü də kirə çıxacaq.
Dirilər ölüb gedəcək
Ölülər diri çıxacaq.

İndi gözünü döyənlər
Onda sözünü deyəcək.
Yalan işə keçməyəcək
Hamı düzünü deyəcək.

# İSTƏDİM

**Rahilə Dövran**

Dünyanı dərk edib, anlayan andan
Tanrıdan dağlartək,vüqar istədim.
Diləyi dilədim ürəkdən, candan
Ömürlük vəfadar, ilqar istədim.

Heç zaman sevmədim bəzəyi, zəri
Hüsnümü süslədi anlımın təri
Olsa da üstümdə Haqqın nəzəri
Rəbbimdən nə sərvət, nə var istədim.

Çox çıxdı yoluma, “halay pozanlar”
Ayağım altında,”quyu qazanlar”
Hey sitəm etsə də, “yolun azanlar”
Onlara meydanı, mən “dar” istədim.

Ürəkdən bağlandım doğma torpağa
Mehr etdim hər kola, gülə, yarpağa
Əzmimlə can verdim bağcaya, bağa
Halal zəhmətimlə, bol bar istədim.

Aylarım, illərim getmədi bada
Haqqımda duyuldu, ancaq xoş səda
Kimsəyə vermədim dərd, bəla, qada
*Rahilə*, hər qəlbə, bahar istədim.